

RAFİQ MUSA

*ikinci hissə*

Nəyinsə xətrinə söz deməmişəm,
Dediyim hər sözün yiyəsiyəm mən.
Dostlarla birlikdə vaxt tapan kimi
Şairlə görüşə gedəsiyəm mən.

Aradan vaxt ötüb, zaman keçsə də,
Sabaha salmışıq səfərimizi.
Şairin "əlində yağı daşsa da",
Heç hara o getməz, gözləyər bizi.

Var olsun dostluğa dəyər verənlər,
Dost evi dost üçün ocaqdı, pirdi.
Biz dünən şairə zəng eləmişik,
O, bizim səfərdən xəbərdar idi.

Dosta dost sevgisi tükənən deyil,
Biz yaxşı işlərin sorağındayıq.
Yola çıxmağımız səbəbsiz deyil,
Dünənki söhbətin marağındayıq.

Bu şəhər tanışdı əməlləriylə,
Elmdə-təhsildə örnəkdir, örnək.
Sükutla ötməyək Hacıqabuldan,
Uzaqdan olsa da, bir salam verək.

Tələbə dostları unutmaq olmaz,
Şirin söhbətləri qalıb yadımda.
Sayılıb-seçilən maarifçi kimi
Təhsildə tanınıb Balaxanım da.

Yəqin, qulağına səs düşüd indi,
Ondan uzaq olsun hər cadu-ovsun.
Əlimiz çatmayır, ünümüz yetər
Bizdən bacımıza salamlar olsun!

Kimsə soruşmasın məndən, əzizim,
Sənin bu şəhərə maraq nədəndi?
Sualın cavabı hər kəsə bəlli,
Tələbə bacımız bu şəhərlidi.

Yolun rahatlığı xoş olsa belə,
Mircəlal nədənsə narahat idi.
Elə bil, nəyisə tapanlar kimi
Bir az da vurnuxub astadan dedi:

- Deyirəm, qağamız özgəsi deyil,
Çoxdandır biz ondan tutmuruq soraq.
Bizim Vilayətə xoş olsun deyə,
Bəlkə, yolumuzu Şirvandan salaq.

Haqqına tapınan haqlıdır, bəli,
Əyriyə yer yoxdu düz olan yerdə.
Hər kəs razılaşır deyilən sözlə,
Mircəlal haqlıdır dediklərində.

Şəhərdə dostların sayı yetərli,
Görmək istəyirdik əziz dostları.
Hər kəsin qəlbində bir sevgi hissi,
Maşınımız dönür Şirvana sarı.

Saməddin zəng etdi, gecikdirmədən,
Məqsədi-məramı açıb-söylədi.
Vilayət bir azca nəm-nüm eyləyib,
Axırda hamının işi düzəldi.

"Qurbanam sana Kür", bu da ana Kür,
Bugünkü halına özü çaşıbdı.
Hanı dəli Kürün dəli çağları?
Suyu süzülübdü, dayazlaşıbdı.

Kimsədən təmənna götürən deyil,
Var olsun Kür çayı - xalqın varıdır.
Yaxşı ki, yaşayır öz axarında,
O, elin-obanın şah damarıdır.

Bu şəhər Şirvandı, səs-küydən uzaq,
Ömrünü yaşayır arzularıyla.
Bu elin şöhrəti çoxdan bəllidi,
Aləmə səs salan yazarlarıyla.

Müəllim olsa da, fəhlə olsa da,
Hər bir kəs sevilib qətiyyətiylə.
Tanınıb hər zaman el-obasında,
Zəhmət adamları öz zəhmətiylə.

Sözün yiyəsidi şairlər burda,
Hər kəsə bəllidi söz kəsəriylə.
Tənbəllik etməyib, şöhrət qazanıb
Ürəyə yol tapan əsərləriylə.

Tələbə həyatı şirindir, qardaş,
Kim onu yaşayıb, onun karıdı.
Bir azdan onunla görüşəcəyik,
Vilayət gəncliyin yadigarıdı.

Vilayət bilirdi gəlişimizi,
Xəbəri var idi hər işimizdən.
Deyəsən, uzaqdan görmüşdü bizi.
Xoşhallıq duyurdu gəlişimizdən.

İcrada onun da yeri görünür,
Hörmət yiyəsidir el-obasında.
Onun da əməyi az olmayıbdı
Parkın, fantanların salınmasında.

Budur, o əl edir uzaqdan bizə,
Bizimlə görüşmək həvəsindədir.
Uzaqdan-uzağa bizə boylanır,
Yaşıl ağacların kölgəsindədi.

Döyüşlər hər şeydən xəbər verirdi,
Sudan duru idi, aydan da arı.
Düşmənin adından minnətə düşdü,
Qeyrətsiz düşmənin havadarları.

Şəhidlik zirvəsi şəhidlərindir,
Sən də varlığınla o zirvədəsən.
Bizim qazilərin çiyinlərində
Təpə yox, dağ olub zirvələnmisən.

Bu yurdun əyilməz oğullarıtək
Qoşuldu döyüşə dağ da, təpə də.
Qalib əsgərlərin məğrur heykəli
Sabah ucalacaq Lələtəpədə.

Dönüş nöqtəsidi müharibənin,
Bu yerdən başlayıb ilk qələbəmiz.
Burda ucalarsa əsgər heykəli yaraşıq verər,
Qürurlu görünər Lələtəpəmiz.

Vətənə verilən ən böyük dəyər
Qalib əsgərlərin savaşındadı.
Tarixi qələbə unudulmayıb,
"Aprel döyüşü"nün yaddaşındadır.

Dağlara arxadır əsgər oğullar
Kimsə əyilmədi yurd savaşında.
Mərdanə dayandı düşmən önündə,
Çiçəklər boy atır Vətən daşında.

Böyük qələbəmiz burdan başladı,
Yol saldı, ev tikdi, olmadı çətin.
Vətənə sevgisi tükənən deyil
Daşı-daş üstünə qoyan millətin.

Hər vaxt göz dağıyıq düşmənə, yada,
Yenidən alışır ocaqlarımız.
Boy atıb hər biri bir igid olub
Cocuq Mərcanlıda "cocuqlarımız"

Budur, qələbənin verdiyi töhfə,
Bu yerlər bir daha görməyəcək qış.
Hər qarış torpağı əzizdi bizə,
Bu günə min şükür, min dəfə alqış!

# OD İÇİNDƏN KEÇƏN YOL

Deyilən vədənin bu gündür vaxtı,
Bizim səfərimiz Cəbrayıladır.
Saməddin, İsmayıl, Arif, Mircəlal
Bugünkü səfərdə "üzüyoladı".

"Ya Allah" söyləyib yola çıxmışıq,
Əli Rza Xələfli gözləyir bizi.
Onunla görüşə tələsirik biz,
Yollarla bölürük sevincimizi.

Yaman tələsirik dost görüşünə,
Heyf ki, maşının yoxdur qanadı.
Uğurlu olubdu səfərlərimiz,
Xoş anlar, xoş günlər yaddaşımdadı.

Şəhərin öz yeri, kəndin öz yeri,
Hər kəs Vətənini öz evi bilir.
Atalar deyəni biz də deyirik:
Kəndin abadlağı yoldan başlayır.

Ağaclar yolların yaraşığıdır,
Gah sola baxırıq, gah da ki sağa.
Yolların sığalı göz oxşamaqda,
İnsan valeh olur bu rahatlığa.

Enişə çatırıq, yol haçalanır,
Yolumuz hələ də olmayıb yarı.
Sağdakı yol dönür Hacıqabula,
Soldakı yol gedir Şirvana sarı.

Ürəklər oxşayan şəhərə bir bax,
Burda gözəlliklər aşıb-daşıbdı.
Sən deyən, bu şəhər belə deyildi,
Doğrudan, nə gözəl abadlaşıbdı.

Aradan vaxt ötüb, illər adlayıb,
Haqqın əmanəti, haqqın səsiyik.
Bu günün dostluğu dünənə bağlı,
Biz ötən illərin tələbəsiyik.

Hər kəsin həyatı bəxtinə bağlı,
Düzü var, enişi, yoxuşu da var.
Əlin çatmasa da, ün yetməsə də,
Şirindən şirindi xatırlananlar.

O illər sevənlər yağış kimiydi,
Sədası şəhərə, gah kəndə düşdü.
Çoxları sevgidə ocaq qaladı,
Odu sönməyənlər "kəməndə" düşdü.

O illər yaşayır xatirələrdə,
Damaqdan getməyib ləzzəti-dadı.
Aradan aralı düşsək bə belə,
Yenə dostluğumuz qaydasındadı.

Həyatın axarı öz qaydasında,
Gənclik ömrümüzün baş tacı idi.
Arabir olsa da qayğılarımız,
Sevgimiz gəncliyin meracı idi.

Şirin xatirələr yola nərdivan,
Biz ötən illərin sorağındayıq.
Deyəsən, Şirvana yaxınlaşırıq,
Yəqin, şəhərin də marağındayıq.

Günəşin nurunu əks eləyirdi:
Uzaqdan Dəli Kür göründü gözə.
Uzaqdan-uzağa olsa da belə,
Sanki bir rahatlıq gətirdi bizə.

Hər kəslə görüşüb, salamlaşdı o,
Maşından düşməyə macal vermədi:
- Buyurun, çay içək, yol yorub sizi
Şirvana gələnin axı nə dərdi nə dərdim?!

İsmayıl dilləndi: "Çox sağ ol, qardaş,
Yolumuz uzaqdı, getsək yaxşıdı".
Saməddin göz basıb astadan dedi:
- Çox getmə dərinə, "şofer" naşıdı.

Vilayət tələsik qalxdı maşına,
Deyəsən, "şofer"dən deyildi razı.
"Şofer" "cin atı"na" minmişdi sanki,
Maşını tərpədib, artırdı qazı.

Söz-sözü çəkirdi, söhbət-söhbəti,
Hər kəsin qəlbində bir dünya vardı.
Sanki yaşayırdıq xatirələrdə,
Söhbət şirinləşir, yol uzanırdı.

Uzaqdan görünən Lələtəöədi,
Tarixə yazılıb qəhrəman adı.
Təpələr bürünüb yaşıl örpəyə,
Gəlib - gedənlərin marağındadı.

Salam, Lələtəpə! Xoş gördük səni,
Bizim səfərimiz Cəbrayıladı.
Səninlə bağlıdır ilk qələbəmiz,
Biz burda məhv etdik yağını-yadı.

Yeri yox, biz sənə təpəsən desək,
Təpələr dağ olub zirvələnibdi.
Səninlə görüşə bu səhər çağı
Qardaşın gəlibdi, dostun gəlibdi.

Ötəri olmasın görüşlərimiz,
Neçə ki varsınız, bizlər də varıq.
Səninlə bu görüş son olmayacaq,
Biz daim görüşmək arzusundayıq.

Bir zaman bu yollar alov içində,
Haqqın - ədalətin sorağındaydı.
Dırnaqla, diş ilə yığdıqlarımız
Zalım düşmənlərin tapdağındaydı.

Var olsun Vətənin ər oğulları,
Atlandı, atıldı alova-oda.
Bu yerdə düşmənlə savaşa girdi,
Dəmir yumruğunu göstərdi yada.

Bu yerlər bir daha tapdanmayacaq,
Yağışlar yuyacaq tapdanan izi.
Dünyaya qol açıb uzanan yollar
Xoşbəxt gələcəyə aparır bizi.

Mircəlal gözünü bayırdan çəkdi:
- Bəlkə, Əli Rzaya telefon açaq?
Bizim söhbətimiz yadından çıxar,
Qoy evdən-eşikdən düşməsin "qaçaq".

Şairə zəng etdi Mircəlal qağa,
Onların sğhbəti dağları aşdı.
Yerbəyer etdilər söhbətlərini,
Rahat nəfəs alıb, ssğoılaşdılar.

Bu yol Cəbrayıla aparan yoldu,
Bu yoldan qalmayıb kimsə narazı.
Uzaqdan-uzağa cəlb cəlb etdi bizi
Daş sütun üstündə görünən yazı.

*(Davamı 9-cu səhifədə)*

# OD İÇİNDƏN KEÇƏN YOL

*(Əvvəli 8-ci səhifədə)*

"Cəbrayıl" yazılıb bu daş sütuna,
Bu sözlə bölüşdük sevincinizi.
Sıxdıq sinəmizə bu daş sütunu,
Ötənlər bir daha kövrəltdi bizi.

Elə bil, daş yağıb dərəyə, düzə,
Oğulsan, gəl indi bu yeri tanı?!
Çöllərə baxıram, bağrım yarılır,
Hanı Cəbrayılın kəndləri, hanı?

Kimsə yaşamadı arzularını,
Dağıldı ev-eşik, bəxt himə düşdü.
Qaçqınlıq, köçkünlük bir də qəriblik
Bu elin-elatın bəxtinə düşdü.

Əlbəttə, bu yerlər belə olmayıb,
Hər tərəf göz dağı, ürək ağrısı.
Adını çəkməyə dilim də gəlmir,
Salamat kəndmi var sadalanası?

Uzaqdan seyr edib, baxmağa nə var
Haqlının duası Tanrıya yetsin.
Ünvanı bilinmir kəndin-kəsəyin,
Evmi var, yiyəsi evinə getsin?!

Yerlə yeksan olub Mehdili kəndi,
Qalmayıb Tatarda daş üstündə daş.
Bir zaman Mahmudlu göz oxşayardı,
Onun da dərd-səri ağırdı, qardaş.

Tarixə qovuşub İsalı kəndi,
Gödəkli, Quşçular gör nə gündədi!
Bu kəndlər neçə yol boşalıb-dolub,
Yəqin, xoş günləri hələ öndədi.

Necə gəlib-getsin qonaq-qarası,
Kol basıb yol-izi, bərəni-bəndi.
Aşıq Məliklinin suyu sovulub
Dərdinə bələnib Soltanlı kəndi.

Deyəsən, od yağıb Şükürbəyliyə,
Düyünə düşübdü quşların səsi.
Müsüdə salamat evlər qalmayıb,
Nə divar fərlidi, nə də kölgəsi.

Qapısız-bacasız uçuq evlərin,
Qədrini bu kənddə yaşayan bilər.
Əl vurmaq olarmı daşa-divara
Mürgülü divarlar üstünə gələr.

Bizim Xələflidi bu kənd, deyəsən,
İçinə çəkibdir ahu-zarını.
Dərdini gizləyib viranəlikdə,
Yaşayır ömrünün acılarını.

Tanınmaz olubdu kəndə gedən yol,
Bu yolda yolçular yolundan olar.
Elə bil, əvvəldən heç olmayıbdı,
Bu kəndi o kəndə aparan yollar.

Kimsəsiz qalıbdı biçənəklər də,
Burda buludların qaradı qanı.
Xəyalım dolanar çən-duman kimi
Səhraya döndərər könül dünyamı.

Elə bil, bu yerlər olmayıb binə,
Viranə kəndlərin daş ağrısı var.
Çoban tütəyinin duyulmur səsi,
Örüşdə görünmür qoyun-quzular.

Ömür-gün bağlıdı bəxtə-qismətə,
Daşın-torpağın da öz taleyi var.
Quru ağacların qalmayıb halı,
Barından olubdu barınan bağlar.

Hər işi yerbəyer eləmək çətin,,
Əlində olmayan gümana bağlı.
**Olmuş-olacaqlar tale işidi,**
**Burda abadlıqlar zamana bağlı.**

Tarixi çox zaman daşlara yazdıq,
Qayalar varlığım, can sirdaşımdı.
Bu adi daş deyil, daş sütun deyil,
Göylərə ucalan daş yaddaşımdı.

Bu elə-obaya yolu düşənlər
Qürurla baxacaq abidə daşa.
Cəbrayıl sözünü Vətən sözüylə
Oğullar bu daşa yazıblar qoşa.

Güləcək kəndlərin üzü güləcək,
Alışıb yanacaq evlərdə ocaq!
Bu yerləe yeni bir tarix yazacaq,
Bu kəndlər yenidən abadlaşacaq.

Düşmənin bu yerdə qırıldı beli,
Dözə bilmədilər böyük savaşa.
Haqqı-ədaləti bərpa edənlər
Cəbrayıl sözünü yazdılar daşa.

Dərin dərələrin bağrı yarılıb,
Hələ də uyuyur ağrılarında.
Barıt qoxusu var, qan ləkəsi var
Dağların yamyaşıl "sarğılarında".

Bir zaman yaşadı xatirələrdə,
Ağrı-acılara dözdü birtəhər.
Köhnə dərdlərini unuda bilmir,
Yeni dünyasını yaşayan şəhər.

Qurub-yaradanlar öz həvəsində,
Burda göz oxşayır görülən işlər.
Var olsun şəhərin tikilməyində
Daşı-daş üstünə qoyan kişilər.

Bu şəhər zamanın axarındadı,
Yüksəliş görməyib ömründə belə.
Ucalan binalar göz oxşasa da,
Cəbrayıl özünü tapmayıb hələ.

Atalar-babalar güc göstəridlər,
Hər ağrı-acıya veriblər sinə.
Bu şəhər düşmənə əyilməyibdir,
Oğullar yenidən edirlər binə.

Düşmənə kinimiz yetərincədi,
Nə xoşdur görürük abad şəhəri.
Bu şəhər sevilib, sevənə bağlı,
Var olsun sevəni, sevilənləri.

Küçələr nə geniş, sahmanı gözəl,
Gözəllik içində coşub-daşırıq.
Uzaqdan-uzağa görürük onu,
O duran küçəyə yaxınlaşırıq.

Xələfli bir evin işığı deyil,
Aləmə nur saçır öz ziyasıyla.
Onun hər bir işi göz önündədi,
Cəbrayıl öyünür Əli Rzasıyla.

***Od içindən keçən yol şair Rafiq Musanın yeni əsəridir. Bu poema yaxın tariximizin acılı, iztirablı bir parçasına işıq tutur. Müəllif yaradıcılıq əzabına hünərlə qatlaşıb, səmimi bir əsər yaradıb. O qəhrəmanlarına, eləcə də zamana və həyata çox doğmadır, bağlıdır... Söhbət şair Rafiq Musadan gedirsə, inamla deməliyəm ki, o, çox istedadlı şairdir... həyat nun üçün tükənməz enerji mənbəyi, çox zəngin obrazlar qalereyasıdır.***

* * *

***İstedadlı adamın düşüncəsində Söz xəmir kimi yoğrulur ... ona poetik forma və məzmun vermək ilahi güc bəxş olunmuş sənətkar üçün heç vaxt çətin olmur. Ona görə də Rafiq Musa tükənmir... bütün varlığı ilə sözlə və sözdə yaşayır...***

*Əli Rza XƏLƏFLİ*

Hər kəsin bu yerdə rahatlığı var,
Burda yaşayanın nə dərdi-səri?!
Hər işin, hər zaman sənərkarı var,
Var olsun el üçün iş görənləri.

Uzaqda görünən dağlara bir bax,
Bizimi gözləyir zirvənin qarı?
Tanrımız heç nəyi əsirgəməyib,
Burda tükənməzdir dünyanın varı.

Günəşin sevgisi dağlardan aşır,
Buludlar zirvədə bölük-bölükdü.
Bu yerin qüruru şeirə sığmır,
Bu sonsuz göylərdən daha böyükdü.

Torpaqa "can" desən çiçək bitirər
Özgəyə qanqal da bitirməyibdi.
Bu torpaq neçə yol yağmalansa da,
Qeyrəti, namusu itirməyibdi.

Bu torpaq düşmənə göz dağı olub,
Hər zaman inanıb öz varlığına.
Taix də bu yurda xor baxanları,
Göndərib tarixin qaranlığına.

Öpək çeşmələrin buz yanağından,
Sevgimiz qarışsın bulaq səsinə.
Uzaqdan-uzağa salam göndərək
Sərin bulaqların zümzüməsinə.

Viranə evlərdən, çöldən, çəməndən,
Hələ çəkilməyib barıt qoxusu.
**Var olsun bu yurdun mərd oğulları,**
**Halaldı hər kəsə bu torpaq, bu su.**

Xələfli sevgisi tükənən deyil,
Uzaqdan əl edib bizlə bölüşdü.
Bizsiz darıxırmış, sən demə, şair,
Bizim gəlişimiz yerinə düşdü.

Şair gəncliyindən darqursaq idi,
Əvvəl küsülütək görüşdü bizlə.
Sonra yığışdırıb qaş-qabağnı,
Süzdü hər bir kəsi o, gülərüzlə.

İlk öncə qılıqla danladı bizi:
-Bilmirəm, mən indi danlayım kimi?
Köhnə peşənizdir gecikməyiniz,
Hər yerdə, hər zaman olduğu kimi!

Şairin ən yaxın dostları idi
Bugünkü gəliri, qazancı, varı.
Xələfli hər kəsə ərk ilə dedi:
-Küçədə durmayın, qalxın yuxarı.

Ünvana qalxırıq - yeni ünvana,
Əli Rza bu zaman "dilotu yedi".
Əliylə göstərib açıq qapını,
"Buyurun içəri, buyurun", - dedi.

Bir anlıq qayıtdım ötən illərə,
Xəyalım dumana, çənə büründü.
Heyif ki, Zal əmi dəymirdi gözə,
Tovuz bibimizin yeri göründü.

Aradan gör neçə illər ötübdü,
**Bu evdə hər kəsə qaynayır qanım.**

Əli Rza Xələfli - ağsaqqal baba,
Əlbəttə, nənədir Əntiqə xanım.

Qapımız nə qıfl, nə açar görər,
Nizami babamız belə demişdi.
Dabanı üstündə dayanan qapı,
Bəlkə də, səhərdən örtülməmişdi.

Dünyanın hər işi əvvəldən belə,
Bağlıdır sevincə, bağlıdır dərdə.
Rəhmətlik Zal əmi, Tovuz bibimiz
Yenidən yaşadı xatirələrdə.

Ağlayıb gələnlər ağladıb gedər,
Körpə qucaq açar yeni həyata.
Əli Rza Xələfli müdrikləşibdi,
Oğullar böyüyüb olublar ata.

Əntiqə bacımız çox dəyişməyib,
Bir zaman necəydi, elədi indi.
Şairin gözündə... deyə bilmərəm,
Nəvələr yanında nənədi indi.

Hər güldən, çiçəkdən ətir gətirib,
Dolub otaqlara dağın havası.
Ocağı gur yansın, bol olsun nuru,
Var olsun bu evin qonaq-qarası.

Tanrı töhfəsini əsirgəməyib,
Çayın öz ətri var, suyun öz dadı.
Çiçəklər ətrini ərmağan edib,
Dağların havası otaqlardadı.

"Şkaf"lar düzülüb divar boyunca,
Rəflərdən boylanan onun varıdır.
İlk öncə bu evdə diqqəti çəkən
Şair Xələflinin kitablarıdı.

Kitablar əzizdir burda hər kəsə,
Bu evdə yeri var kitabların da.
Şairin sevinci, qayğıları var
Rəflərə yığılan kitablarında.

Bir vaxt vətənindən düşsə də köçkün,
Şairin gəncliyi qalmışdı burda.
Ağrı-acıları atıb bir yana,
Sevgiylə-sevinclə dönübdür yurda.

Sanki sevincini bizimlə bölür
Xələfli dağından enərək düzə.
Kitablar üstündə şəkillər fərqli,
Xələfli hər yaşda boylanır bizə.

Yeni ev-eşikdə sahmana bir bax,
Yarısı burdadı dünya varının.
Yazdığı əsərlər göz oxşamaqda,
Sayı bilinməyir kitablarının.

Şairin qəlbi var əsərlərində,
Sözləri sözlərə calayıb gedir.
Kitabdan-kitaba səssiz-səmirsiz
Bir ömür karvanı yol alıb gedir.

Hər sözün qiyməti öz dəyərində,
İpək sığalıdı, haray səsidi.
Ürəkdən ürəyə süzülən sözlər
Ağılın, idrakın təntənəsidi.

Ömrün davamıdır yazılan əsər,
Nurunu hər yana salacaq hər gün.
Fikirlər kitabda korşalan deyil,
Boş rəflər kitabla dolacaq hər gün.

Şeirlər alovdan-oddan yoğrulub,
Hər misra tarixin haray səsidi.
Şeirlər şairin könül nəğməsi,
Haqqın-ədalətin təntənəsidi.

*(Davamı 12-ci səhifədə)*

# OD İÇİNDƏN KEÇƏN YOL

*(Əvvəli 9-cu səhifədə)*

Hər kəsə açıqdı duyğusal könlü,
Dillərdə dastandı şairin adı.
Rəfdəki boş yerlər darıxır yaman,
Yeni kitabların sorağındadı.

Zamanın dərd yükü çiyinlərində,
Sevgisi, kədəri saçında dəndi.
Şairin tərifə ehtiyacı yox,
Yazdığı əsərlər göz önündədi.

Var olsun şairi öz varlığıyla,
Yerinə yetirib hər istəyimi.
Xələfli kənardan baxırmış mənə,
Deyəsən, duymuşdu deyəcəyimi.

Kitablar ömrünün karvan yüküdür,
Hələ görünməyir son dayanacaq.
-Yeni kitablarım çapdadır, qağa,
Bu günə, sabaha hazır olacaq.

Qonaqlı-qaralı evlərimiz çox,
Alqış bu ocağa, bu elə alqış!
Şair gözləyirdi gəlişimizi,
Süfrəni əvvəldən hazırlayıbmış.

Dostları yanında olsa da belə,
Elə bil, nədənsə narahat idi.
Xələfli bir daha xoş-beş eyləyib,
"Buyurun süfrəyə, əyləşin", - dedi.

Ağına-bozuna baxmadı heç kəs,
Çörəkdən qoparıb, bismillah dedik.
Yol bizi yamanca silkələmişdi,
Süfrədə olandan iştahla yedik.

Bəlkə, tələsməyin vaxtı yetişib,
Ortaya söz atdı "şofer" sirdaşım.
Sən demə, hər şeyi hazırlayıbmış,
Him-cimə bənd imiş şair qardaşım.

Hər kəsin sözünə diqqət yetirib,
Hər kəsi süzürdü bayaqdan bəri.
Heç kimin sözünü o, kəsməyərək,
Saf-çürük edirdi deyilənləri.

Süfrənin üstündə bolluq olsa da,
İşini bilənlər çoxdan az yedi.
Söhbətə yenidən şair qoşuldu:
Bir az da dincəlin, durarıq, dedi.

Yəqin ki, bir azdan qalxacıq dağa,
Qazanı qoyacıq ocaq daşına.
Biz həsrət qalmışdıq illərdən bəri
Ağac kölgəsinə, bulaq başına...

Uzaqdan görünür Xələfli dağı,
Seyrək buludlarla xətirlənibdi.
Çiçəkmi yağıbdı dərəyə, düzə?
Hər tərəf nə yaman ətirlənibdi.

Dağları görüncə qürurlanıram,
Dərədən səs gəlir, çayın səsidi.
Arabir dağlardan əsən küləklər
Dağların arana hədiyyəsidi.

Dərələr nə dərin, yamaclar gözəl,
Təbiət bu yerə qələm çəkibdi.
Çiçəklər qayanın bağrını yarıb,
Xınalı qayalar çiçəkləyibdi.

Quşlar nəğməsini axşama salıb,
Dincəlir budağın sərinliyində.
Tarixə qovuşub Xələfli kəndi,
Uyuyur suların dərinliyində.

**Gordu bulağının səsini dinlə,**
**Nəğmələr yaşayır zümzüməsində.**
**Şirin xatirələr baş alıb gedir,**
**Ruhumuz dolaşır çeşmə səsində.**

Cığırlar zirvəyə çəkib aparır,
Vallah, təzələnir bu yerdə yaddaş.
Al-əlvan geyinib bərələr-bəndlər,
Çiçəkli çəmənlər xalıdı, qardaş.

Bu yerdə sevgiyə dəyər verilib,
Yerlə-göy ilk dəfə burda görüşüb.
Tanrı dərgahından gələn gözəllik
Necə də bu yerin bəxtinə düşüb.

Göylərə baxıram, könül oxşayır,
Dağlardı bu yerdə göyün dayağı.
Burda göy üzünü enməyə qoymur,
Göylərə sütundu Xələfli dağı.

Burda söz yiyəsi sözünə bağlı,
Dağlardan ucadır hər kəsin andı.
Əli Rza Xələfli, bəxtinə düşüb,
Bu yurdun hər yeri cənnət-məkandı.

Bir zaman bu yerlər "qan çanağıydı",
İndi yerindəmi əhvalın-halın?
Bəlkə qonaqlığı saxlayaq bir az,
Gəzək bu yerləri bir ayaqyalın.

Dağlar köklənibdi "Cəngi" səsinə,
Daşların mamırı toylar xınası.



Göylərə baxıram, sanki dənizdi,
Quşqonmaz zirvələr ruhun qidası.

Könlümü oxşayır hər dərə, hər dağ,
Göylər bizimkidir, dərələr bizim.
Könlüm bu yerlərin həvəsindədir,
İzin ver, dağları doyunca gəzim.

Əl verib görüşüm sal qayalarla,
Baxıb varlığına doysun gözlərim.
Ağır sınaqlardan çıxan çöllərin
Dərdinə məlhəmdir ayaq izlərim.

Alsın könlümüzü bu dərə, bu dağ,
Sevgilər paylayaq şəhərə, kəndə.
Qoy sıxım sinəmə gülü-çiçəyi,
Bənövşə bir daha düşməsin bəndə.

Zirvədən boylanım dərəyə-düzə,
Qəlbimi boşaldım dağ yollarına.
Güllə yarasına dözən qayanın
Bir az sığal çəkim yaralarına.

Sıxım ürəyimə torpağı-daşı,
Gəzməyim bu eli-yurdu boşuna.
Hərdən xatırlayıb ansınlar məni,
Çevrilim bu yerdə Vətən daşına.

Təpələr nənəmin kündələridi,
Oğulsan, təpəni əpədən ayır.
Dağları oynadan dağ çayı yenə
Düzlərə enəndə meydan sulayır.

Burda bulaqların sayı yetərli,
Şirvani bulağı, Kar bulaq sərin.
Hər ağac kölgəsi bir xatirədi,
Məskəni olubdur sevilənlərin.

Sözünün kəsəri qılıncdan iti,
Hörmət yiyəsiydi aranda-dağda.
Saz tutub, söz deyib min bir həvəslə
Dirili Qurbani Dirili dağda.

Burda küləklərin havası özgə,
Güllərin ətrinə dağlar barınıb.
Qaya var, şimşəklər güc eyləməyib,
Çiçəklər qayanın bağrını yarıb.

Gah selə dönürəm, gah da ki yelə,
Duyğumun axarı aparır məni.
Ulu Xələflini sənmi tanıtdın,
Yoxsa Xələflimi tanıtdı səni?

Mircəlal dayanıb tonql başında,
Yenə də həvəslə iş başındadı.
Ətin tikələri şişə taxılıb,
Ocaqda bişən ət öz dadındadı.

Sözə meydan verib şair Xələfli,
Yenə xatırlandı gənclik çağımız.
Açdıq süfrəmizi göy otun üstə,
Süfrəni bəzədi "bazarlığımız".

Ətirli dağların havası sərin,
Qayğısı çəkilmir, burda heç nəyin.
Ləzzəti özgədi, dadı özgədi,
Təbiət qoynunda yeyib-içməyim.

Budur, pul-pul olub kömürün közü,
Tüstüsü dağların başından uca.
Kəməri bir az da boşaltmaq gərək,
Yeyib-içməliyik bu gün doyunca.

Sən deyən elə də vaxt itirmədik,
Köz üstə bişənlər süfrəyə gəldi.
Yenə yada düşdü olub-keçənlər,
Tələbə həyatı önə çəkildi.

O şirin illəri xatırlasaq da,
Qayıtmaq mümkünmü itən günlərə?
Ayları illərə calasaq belə,
Gedib çatmaq ölmur ötən günlərə.

Var olsun şairin odu-ocağı,
Bugünkü dincliyi şair yaratdı.
Bu yerdə yaşayıb, yazmağa nə var,
Bu axşam ömrümüz bir gün də artdı.

Dünənə həsrətlə boylandıqca biz,
Unutmaq istədik hər dərdi-səri.
Bu gün yaşamağa, yanmağa dəyər
Gənclikdən bu günə qalan günləri.

Bu yerin sahmanı göz oxşamaqda,
Gur işıq yayılıb dərəyə-düzə.
Deyəsən, axşamdan xeyli keçibdi,
Ulduzlar səmadan boylanır bizə.

Bu yerlər gözəldi, gör necə xoşdu
Yerin də, göyün də abı-havası.
Bu axşam dünyanın xoşbəxti bizik,
Bir ömür yaşadıq xatırlanası.

Şairin üzündə sevgiyə bir bax,
Vətəndən özgə yer yalanmış, yalan.
Dörd divar arası sıxırmış onu,
Sanki öz evidi bu yer, bu məkan.

Yer də çıl-çıraqdı, göy də çıl-çıraq,
Var olsun vətənin mərd oğulları.
Sevincdən sinəmə sığmayır könlüm,
Elə bil, mənimdir dünyanın varı.

Bu axşam pay düşdü taledən bizə,
Yenidən yaşadıq gənclik həyatı.
Bugünkü görüşün səbəbkarı var,
Var olsun şairi, eli-elatı.

Şairin ağzından dürr tökülürdü,
Heyranı olmuşduq, səs eləmirdik.
Başımız söhbətə elə qarışdı,
Axşam necə ötdü, hiss eləmədik.

Bu yerdə rahatlıq tapmayan şair,
Gah sola yol aldı, gah da ki sağa.
Alovlu, duyğusal şeirləriylə
Endirdi arana, qaldırdı dağa.

Kimsə doya bilmir xoş söhbətindən,
Adam darıxarmı o olan yerdə?
Yeni şeirləri könül oxşayır,
Ömür yaşayırıq söz-söhbətində.

Yır-yığış eləyib ayağa durduq,
Təşəkkür eylədik ulduza-aya.
Uşaqlar narahat olmasın deyə
Düşündük, qayıdaq mehmanxanaya.

Kimisə narahat etməyə dəyməz,
Çoxdan ötüşübdür gənclik çağımız.
Şair istəsə də, yeri deyildi
Yenidən o evə qayıtmağımız.

Söhbətin axırı uzun çəksə də,
Axır ki şairlə dil tapa bildik.
Şair küsməyini atdı bir yana,
Sonunda bir ortaq məxrəcə gəldik.

Mircəlal sözünü tamamlamışdı,
Əli Rza ərkyana yenidən coşdu:
-Qonağın hər evdə yeri olsa da,
Onun qayğıları daha da xoşdu.

Sözün də dəyəri ocaqdan gəlir,
Həmişə gur yansın odu-ocağı.
Arzusu çin olub şair qardaşın,
Xoş anlar yaşatdı bu axşam çağı.

Mircəlal söylədi deyəcəyini,
Şairin nədənsə üzü gülmədi.
Biləndə gedirik mehmanxanaya
O, bunu yenə də rəva bilmədi...

Bu səhər biz olan "Hotel" gəldi,
Deyəsən, deməyə var imiş sözü.
Şairin səs-küyü bizi oyatdı
Açılar-açılmaz səhərin gözü.

Üzündən-gözündən hiss elədik ki,
Bu gecə yatmayıb Əli Rza qağa.
Hər işi saf-çürük eyləyən şair
Gəlibdir bizləri yola salmağa.

Qonağı axşamlar salmazlar yola,
İstəyib bizləri yenidən görə.
Səhər yeməyini bir yerdə yeyib,
Təşəkkür elədik hər şeyə görə.

Dözdü hər bir işdə çətinliklərə,
Odur ki, söhbətdə, hər işdə arif.
"Can" deyid, hər kəsin könlünü aldı
Bizim "naşı şofer" - sürücü Arif.

Sözünü heç zaman deməyib boşa,
Yüz dəfə ölçə də, bir dəfə biçir.
Vilayət dilləndi: "Unutmayın ki,
Bakıya gedən yol Şirvandan keçir".

***07.07.2025***